

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 may
2025-ci il,
çərşənbə axşamı
№ 080 (6907)
Qiymәti
60 qəpik


# Şuşa: Planetin ən legitim tribunasından dünyaya Mütləq Qələbə mesajı!



Bax səh. 2

# Qarabağın inkişafında yeni mərhələ

Bax səh. 3



Bax səh. 4

## YAP nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər



Bax səh. 4

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib

## Daha əlçatan və əhatəli xidmətlər üçün

Prezident İlham Əliyev "Sosial xidmət haqqında" Qanunda dəyişiklikləri təsdiq edib. Dəyişikliklərə əsasən, sosial xidmətin göstərilməsi barədə müraciətə baxılması, qiymətləndirilməsi və qərar qəbul edilməsi ilə bağlı mövcud prosedurlar asanlaşdırılır və daha da konkretləşdirilir. Yeni dəyişikliklər ölkəmizin sosial inkişaf çağırışlarından irəli gələrək sosial xidmət institutunda islahatların mühüm tərkib hissəsi olmaqla...

Bax səh. 4

## Azərbaycan və Çinin təşəbbüskarlığı ilə...

2015-ci ilin mayında Çinin İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsi Ticarət və Xarici İşlər nazirlikləri ilə birlikdə "Gələcəyə baxış: "İpək Yolu iqtisadi kəmər" və XXI əsir "Dəniz İpək Yolunun" yaradılması istiqamətləri" adlı hesabatı hökumətə təqdim edib. Sənəddə Çinin zəif inkişaf edən regionlarında ixracyönümlü istehsalın artırılması və nəqliyyat infrastrukturunun yenilənməsi nəzərdə tutulub. Hesabat Çinin...

Bax səh. 5

## "Terrorsuz Türkiyə" hədəfi...

PKK terror təşkilatı özünü buraxdığını açıqlayıb. Türkiyə mediasının yazdığına görə, Abdullah Öcalanın bu il fevralın 27-də etdiyi çağırışa cavab olaraq, PKK-nın "Konqres Şurası" mayın 5-7-də toplaşaraq PKK adlı "missiyaya" son qoymaq qərarına gəlib. Terror təşkilatının özünü buraxması barədə qərar isə mayın 12-də açıqlanıb.

Xatırladaq ki, fevralın sonlarında Türkiyənin Ədliyyə Nazirliyi DEM Partiyasının...

Bax səh. 6

## Trampın ilk rəsmi səfəri...

ABŞ prezidenti Donald Trampın mayın 13-dən 16-dək davam edəcək Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə səfəri qlobal diqqət mərkəzindədir. Bu gündən başlanan tur prezidentin yanvarın 20-də vəzifəyə başladıqdan sonra ilk tamhüquqlu xarici səfəri sayılır. Xatırladaq ki, Tramp ilk prezidentliyi dövründə də ilk rəsmi səfərini məhz Səudiyyə Ərəbistanına etmişdi...

Bax səh. 7

## Makronu kim əvəz edəcək?



Bax səh. 7

## Mayın 15-də... İstanbul tarixi görüşə ev sahibliyi edəcək



Bax səh. 6

# İlham Əliyev Türkiyə xalqını təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı X sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm.

Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir.

Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

# Şuşa: Planetin ən legitim tribunasından dünyaya Mütləq Qələbə mesajı!















Vətən müharibəsində Müzəffər Ordumuzun şücaəti sayəsində işğaldan azad edilmiş ərazilərin bərpası və məskunlaşdırılması sürətlə davam edir. Xarabalıqlar üzərində yeni bir Qarabağ formalaşır.

Diqqəti çəkən əsas məqamlardan biri isə ondan ibarətdir ki, Azərbaycan dövləti ərazilərin bərpasına və "Böyük Qayıdış" Proqramının icrasına xüsusi həssaslıqla yanaşır. Prezident İlham Əliyev layihələrin icrasını şəxsi nəzarətində saxlayır. O, birinci xanım Mehriban Əliyeva ilə birlikdə tez-tez işğaldan azad edilmiş ərazilərə səfərlər edərək yeni təməlqoyma, açılış mərasimlərinə qatılır və Özünün dəyərli tövsiyələrini verir. Mayın 9-da və 10-da dövlətimizin başçısının və birinci xanımın iştirakı ilə Şuşada, Ağdamda yeni belə tədbirlər baş tutub.

**Qələbə gününün Şuşada qeyd edilməsinin xüsusi özəlliyi**

Mayın 9-da bütün tərəqqipərvər bəşəriyyət İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 80 illiyini qeyd etdi. Bu tarix Azərbaycan üçün də müstəsna önəm daşıyır. Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib.

Azərbaycan xalqı artıq beşinci ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi nəticəsində qazanılmış böyük Zəfərin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Qələbə günündə işğaldan azad edilmiş ərazilərə səfər etmələri, Şuşada yeni təməlqoyma və açılış mərasimlərinə qatılmaları xüsusi məna kəsb edir. Dövlətimizin başçısı Şuşadan - planetin ən legitim tribunasından dünyaya Mütləq Qələbə mesajlarını çatdırıb.

Faşizmin milliyyətini, vətənini fərqləndirmək mümkün deyil. Faşizm - insanlara qarşı amansızlıqla, sivilizasiyaların məhv edilməsi ilə assosiasiya olunur. Azərbaycan da otuz illik işğal dövründə erməni faşizmini ən qəddar formada öz üzərində hiss edən dövlətdir. Ermənilər uzun illər ərzində özləri barədə "mədəni xalq" mifi uydurublar. Ancaq Qarabağdakı sərhəd tanımayan dağıntılar, son vaxtlarda aşkar olunan kütləvi qəbiristanlıqlar, minalanmış ərazilər əyani  şəkildə təsdiqləyir ki, ermənilərin "mədəni xalq" iddialarının hansısa bir əsası yoxdur. Ağdam Muğam Mərkəzinin açılışındakı çıxışında erməni faşizminin mahiyyətinə diqqət şəkən Prezident İlham Əliyev vurğulayıb: "Bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı urbisid törədilmişdir, ekosid törədilmişdir. Erməni faşizmi bu bölgəni daim işğal altında saxlamaq istəyirdi və əfsuslar olsun ki, onların arxasında duran bəzi xarici dövlətlər onlarla həmrəy idi".

Ancaq ermənilər və onların havadarları bir şeyi hesablaya bilməmişlər: Bu da Azərbaycan xalqının iradəsi, əyilməz milli ruhu və torpağa olan bağlılığımızdır. Biz heç vaxt torpaqlarımızın işğal altında olması faktı ilə barışmadıq. Prezident İlham Əliyev Qarabağ məsələsini daim Azərbaycanın gündəliyinin mərkəzində saxladı, iqtisadiyyatı, ordunu gücləndirməklə ölkəmizi qələbəyə hazırladı. Cəmiyyətimiz də vahid amal, əsas ümummilli ideyamız ətrafında sıx birləşdi. Dövlətimizin başçısının bildirdiyi kimi, artıq biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Xalqımızın güclü həmrəyliyi sayəsində biz mütləq və tam Qələbə qazandıq. Bu Qələbə tarixdə əbədi qalacaq və Azərbaycan xalqı qürurlu xalq kimi yaşayacaq. Xatırlatmaq yerinə düşər ki, İkinci Dünya müharibəsindən sonra heç bir dövlət müharibədə mütləq qələbə qazanmayıb. Azərbaycan isə müharibəni müvəqqəti atəşkəs, qeyri-müəyyən sülhlə yox, tam qələbə ilə bitirib.

İkinci Qarabağ müharibəsində qazanılan Zəfər tarixi Qələbə olsa da, suverenliyimiz tam təmin edilməmişdi. Xankəndidə və digər ərazilərdə separatçılar, necə deyərlər, yenə də iş başında idilər. Biz belə vəziyyətlə barışa bilməzdik. Buna görə də dövlətimizin başçısının bildirdiyi kimi, biz



2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 20-nə qədər yenə də hər gün, hər saat siyasi, diplomatik, hərbi və digər alətləri işə salaraq bax bu günü - 20 sentyabr gününü yaxınlaşdırırdıq. Nəhayət, 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası "Dağlıq Qarabağ Respublikası" artıq tarixin zibilxanasına göndərildi.

**Şuşada dördüncü yaşayış kompleksi**

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 9 May Qələbə günündə Şuşaya səfər etmələri də təsadüfi deyil. 2020-ci il noyabrın 8-də Şuşanın erməni faşizminin işğalından azad edilməsi Vətən müharibəsinin xüsusi bir səhifəsidir. Məhz Şuşa Zəfərindən sonra düşmən müharibəni davam etdirməyin mənasız olduğunu başa düşdü və onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı.

Hazırda Vətən müharibəsində işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Şuşa da yeni növrağını yaşayır. Şəhərin tarixi siması və mədəni ənənələri bərpa olunur. Artıq şəhərə şuşalıların köçü də baş tutub. İndiyədək Şuşaya 376 ailə, ümumilikdə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb və bu proses mərhələlərlə davam etdirlir. Mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. Kompleksin ümumi sahəsi 6,2 hektardır. Bütövlükdə, dövlət və özəl tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış kompleksi inşa edilir. Onların sırasına mehmanxana, ofis binaları və digər obyektlərin tikintisi daxildir.

**Daşaltı kənd məscidinin açılışı**

İşğal dövründə erməni faşizmi tarixi-mədəni abidələrimizə də ciddi ziyan vurub. Postmüharibə dövründə Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında Heydər Əliyev Fondu tərəfindən mədəni-dini abidələrimizin bərpası həyata keçirilir. Mayın 9-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər.

Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Məscid kəndin mərkəzində milli memarlıq üslubunda inşa edilib. İkiminarəli məscid ümumi memarlıq kompozisiyası, planlaşdırma və bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunub. Hündürlüyü 22,5 metr olan minarələr layihələndirilərkən Yuxarı Gövhər Ağa məscidinin minarələrinin formasından istifadə olunub.

Tədbirdə dövlətimizin başçısına və birinci xanıma "Daşaltı kəndinin yenidən qurulması layihəsi" çərçivəsində görüləcək işlər barədə də məlumat verilib. Bu layihə yerli memarlıq irsinə sadiqlik, ekoloji davamlılıq və müasir turizm infrastrukturu ilə kənd həyatını birləşdirir.

**Muğam yenidən Ağdama qayıdır**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 10-da - ölkəmizddə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ümumxalq məhəbbəti ilə qeyd olunduğu bir tarixdə Ağdamda açılış və təməlqoyma tədbirlərinə qatılmaları da böyük rəmzi məna daşıyır. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gələn böyük siyasətçi Heydər Əliyev müstəqilliyimizi xilas etmək missiyasını yerinə yetirməklə yanaşı, həm də respublikamızı inkişafa istiqamətləndirib. İşğala son qoyulması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası Onun ən böyük arzusu idi. Hazırda Ulu Öndərin ruhu şaddır. İlham Əliyev də xoşbəxt oğuldur ki, ata vəsiyyətini yerinə yetirib.

Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda çoxsaylı tədbirlərə, o cümlədən Kəngərli kənd körpələr evi-uşaq bağçasının, tam orta məktəbin açılışına qatılıblar, klub-icma mərkəzində, yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olublar. Kəngərli kəndinin birinci mərhələsinin açılışı baş tutub. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Prezident İlham Əliyev Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub. Birinci mərhələ üzrə buraya 1279 nəfərin köçürülməsi planlaşdırılır. Artıq 292 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Eyni zamanda, Prezident İlham Əliyev Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib. Prezident İlham Əliyev sakinlərin Kəngərliyə qayıtmalarını böyük xoşbəxtlik və tarixi hadisə kimi səciyyələndirib. Kəngərli kəndi bizim bərpa etdiyimiz sayca 14-cü yaşayış məntəqəsidir. Ağdam rayonunun isə ikinci. Birinci Sarıcalı, indi Kəngərli. Xıdırlı kəndi də demək olar ki, açılışa hazırdır. Yaxın aylarda orada da həyat qaynayacaq", - deyə dövlətimizin başçısı sakinlərlə görüşdə bildirib.

Səfər çərçivəsində Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam Muğam Mərkəzinin açılışında iştirak etmələri də son dərəcə əlamətdar hadisədir. Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb.

Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib.

Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq. Beləliklə, uzun fasilədən sonra muğam yenidən Ağdama qayıdır.

*Mübariz ABDULLAYEV*

# Qarabağın inkişafında yeni mərhələ

## Dəmir yolları vahid nəqliyyat qovşağı olmaqla, azad əraziləri digər rayonlarla birləşdirəcək







İşğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu bölgədə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Mayın 10-da açılışı olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında bildirib ki, yeni yol qovşağı Qarabağın ümumi nəqliyyat şəbəkəsinin tərkib hissəsi olmaqla regionun ümumi inkişafında müstəsna rol oynayacaq.

Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi "Bərdə-Ağdam dəmir yolu xətti", Bərdə-Ağdam-Xankəndi dəmir yolu və avtovağzal kompleksi ilə vahid nəqliyyat sistemində birləşməklə böyük meqalayihədir. Təkcə Ağdam dəmir yolu ilə gündəlik 800-1000 nəfər sərnişin daşınacaq ki, bu da bölgəyə səfər edənlərin daha asan və tez mənzil başına çatmasını təmin edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi digər rayonların dəmir yolları ilə birləşəcək. Belə ki, mövcud nəqliyyat xətləri Yevlax-Bakı dəmir yoluna və Xankəndi şəhərinin nəqliyyat blokuna qoşulmaqla Qarabağın sosial-iqtisadi, mədəni inkişafını daha da sürətləndirəcək, Bakı ilə əlaqələri möhkəmləndirəcək. Bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq.

**Yol-nəqliyyat layihələri turizmin inkişafını sürətləndirir**

Yeni dəmir yolları sadəcə nəqliyyat layihəsi deyil, eyni zamanda, iqtisadi inkişaf və rifahı təmin edəcək proqramın mühüm tərkib hissəsi kimi qiymətləndirilə bilər. Yol və digər kommunikasiyaların qurulması bölgədə sahibkarların fəaliyyəti, biznesin yeni layihələr icra etməsi, xarici və yerli sərmayə qoyuluşları, milli istehsalın artması və ixracın şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin, turizm baxımından yol qovşaqlarının, dəmir yolu şəbəkələrinin böyük rolu var. Turizm imkanları baxımından əlverişli coğrafiyaya malik olan bu bölgədə ən müasir turizm xidmətləri, infrastrukturları yaradılır, Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində iş gedir və Laçın və Kəlbəcərdə də belə layihənin icrasına başlanılıb. Nəticədə bütün bu infrastrukturların vahid çətir altında birləşməsi sosial-iqtisadi-turizm hədəflərinə çatmağa imkan yaradacaq. Ümumilikdə, yeni yol təminatları Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.

**Fermer təsərrüfatları ərzaq təhlükəsizliyinə töhfə verir**

Qarabağ iqtisadi rayonunun inkişafında aqrar layihələrin icrası da mühüm əhəmiyyət daşıyır. Bölgədə kənd təsərrüfatının inkişafına töhfə verən mühüm layihələrdən biri də "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılışıdır. Kompleksə damazlıq, ətlik-südlük heyvandarlıq, istehsal və ictimai iaşə xidmətləri daxildir. Təkcə damazlıq təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal olunan məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq.

Ərazisi 7,6 hektar olan Kəndli Fermer Təsərrüfatının digər bölməsi taxılçılığın intensiv inkişafı ilə bağlıdır. İlk mərhələdə ərazidə 500 hektardan çox ərazidə isə payızlıq arpa və buğda əkilib ki, bu da heyvandarlığın yem bazasını formalaşdıracaq.

Ümumilikdə, "Qoç ət" kompleksi azad ərazilərdə iş yerlərinin yaradılmasına və iqtisadi inkişafa töhfə verməklə yanaşı, Azərbaycanın ərzaq təhlükəsizliyində mühüm rol oynayacaq. İşğaldan azad olunmuş torpaqlarda digər fermer təsərrüfatlarının və sahibkarlıq müəssisələrinin yaradılması da uğurla davam etdirilir. Sahibkarlıq fəaliyyətinin təşviqi və dövlətin verdiyi güzəştlər biznes cəlbediciliyinin artırılmasında, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Regionda istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal edilən texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından, həmçinin burada fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunublar.

**Etibarlı və fasiləsiz enerji təminatı gücləndirilir**

Azad ərazilərin infrastruktur təminatında dayanıqlı enerji təchizatı da mühüm əhəmiyyət kəsb edir. Bölgədə yaşayış və sosial həyat təminatının həlli ilə paralel olaraq enerji stansiyaları, kommunikasiyaların yaradılması həyata keçirilir. Dövlət başçısının açılışını etdiyi "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzi həmin ərazi ilə yanaşı, digər ətraf məntəqələrin də enerji təminatını tənzimləyəcək.

3200 KVA gücündə "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, eyni zamanda, kənd təsərrüfatı və turizm obyektlərinin, sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturların etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır.

Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panellərinin quraşdırılması isə "yaşıl enerji"yə keçidin ilk addımı olmaqla, bərpaolunan enerji resurslarının vahid "yaşıl" şəbəkədə cəmləşməsi ilə bağlı strateji hədəflərə çatmağa xidmət edir.

Prezident İlham Əliyevin açılışında iştirak etdiyi digər layihə - Şuşa Müalicə-Sağlamlıq Mərkəzi əhalinin sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayacaq. Sağlamlıq Mərkəzi sosial-tibbi əhəmiyyət daşımaqla yanaşı, bölgənin ümumi xidmət panoramasının simvollarından biri hesab edilə bilər.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan - Vyetnam: Qarşılıqlı münasibətlərdə yeni səhifə

Azərbaycanla Vyetnam coğrafi baxımdan bir-birindən uzaq məsafədə yerləşsə də, iki ölkə arasında qarşılıqlı münasibətlər dövlətlərin siyasi qətiyyətinə və cəmiyyətlərin istəyinə uyğun olaraq uğurla inkişaf edir. Diplomatik münasibətlərin qurulduğu son otuz ildə siyasi dialoq, iqtisadi əməkdaşlıq, o cümlədən energetika, müdafiə sənayesi, ticarət, mədəni-humanitar və digər sahələrdə yaxşı nəticələr əldə edilib. Bu günlərdə Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın respublikamıza baş tutan uğurlu səfəri çərçivəsində isə "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" qəbul edilib. Bu, hər iki tərəfin münasibətləri daha yüksək səviyyəyə qaldırmaq istəyinin əyani təsdiqidir. "...İmzalanmış sənədlər arasında Azərbaycan ilə Vyetnam arasında qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatı xüsusilə qeyd etmək istərdim. Bu, çox ciddi siyasi sənəddir. Bu, əslində, Vyetnam-Azərbaycan əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Əminəm ki, artıq bu yüksəksəviyyəli münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün də ən vacib rol oynayacaqdır", - deyə Prezident İlham Əliyev mətbuata bəyanatında vurğulayıb.

**Münasibətlərin tarixi...**

Azərbaycanla Vyetnam arasında diplomatik münasibətlər 1992-ci ildə qurulub. To Lamın respublikamıza baş tutan səfəri iki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Beləliklə, qarşılıqlı münasibətlərdə yeni bir səhifə açılır. Bu, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir. To Lam mətbuata bəyanatında ölkəsi ilə Azərbaycan arasında dostluq münasibətlərinin 1959-cu ildən başladığına xüsusi diqqət çəkib. "Şadıq ki, ölkələrimizin münasibətləri Prezident Ho Şi Minin Azərbaycana 1959-cu ildə səfəri ilə başladı", - deyə qonaq məmnunluqla bildirib.

Bu səfərin xatırlanması heç də təsadüfi deyil. O dövrdə Vyetnamda vəziyyət ağır idi. Uzun illər ərzində Fransa kimi



istilaçı dövlətlərin müstəmləkəçilik siyasətindən əziyyət çəkmiş ölkənin bərpasına ciddi ehtiyac var idi. Biz qürur duyuruq ki, zamanında çətinliklərlə üzləşən Vyetnamın quruculuq prosesində Azərbaycanın da xüsusi rolu olub. Vyetnam tam azad olandan və birləşəndən sonra neft-qaz sənayesinin qurulmasında Azərbaycan neftçiləri tarixi xidmətlər göstəriblər.

**Ciddi əməkdaşlıq potensialı**

Tarixi zəmin və tərəflərin xoş məramı əsasında qurulan Azərbaycan-Vyetnam münasibətləri hazırda çoxşaxəli səciyyə daşıyır. Prezident İlham Əliyev bildirib ki, bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Səfər çərçivəsində baş tutan tədbirlərdə ayrı-ayrı istiqamətlər üzrə əməkdaşlıq imkanları geniş müzakirə olunub. Həmçinin Bakıda imzalanan sənədlər əlaqələrin əhatə dairəsinin genişləndirilməsi üçün möhkəm hüquqi əsaslar yaradır. Tərəflər iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verirlər. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bu həcm mövcud potensialla adekvatlıq təşkil etmir. Prezident İlham Əliyev mətbuata verdiyi bəyanatında perspektiv əməkdaşlığın bir sıra mühüm istiqamətlərinə diqqət çəkib. Energetika sahəsində imzalanmış sənədlər və aparılan müzakirələr deməyə əsas verir ki, yaxın gələcəkdə bu sahədə əməkdaşlıq daha da genişlənəcək. Qarşılıqlı sərmayə qoyuluşu aktual müzakirə mövzusudur. Artıq göstəriş verilib ki, müvafiq qurumlar həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələləri ilə bağlı konkret addımlar atsınlar.

Hökumətlərarası Komissiyanın iclası uzun illərdir ki, keçirilmir. Artıq bununla bağlı razılıq əldə olunub. İclasın tezliklə keçirilməsi bu və digər istiqamətlər üzrə mümkün əməkdaşlığı daha da sürətləndirəcək. Prezident İlham Əliyev mətbuata bəyanatında mühüm bir məsələyə ayrıca diqqət çəkib. Söhbət ticarət dövriyyəsinin şaxələndirilməsindən gedir. Təəssüf doğuran haldır ki, ticarət dövriyyəsinin dinamikası Azərbaycanın Vyetnama neft satışından asılıdır. "Əlbəttə, biz ticarət dövriyyəmizi daha da balanslaşdırılmış formada görmək istərdik və bunun üçün, təbii ki, qarşılıqlı informasiya mübadiləsi lazımdır. Hansı layihələr ölkələrimizdə həyata keçirilir, investisiya imkanları nədən ibarətdir, qaydalar, qanunvericilik bazası, vergi inzibatçılığı - bütün bu məsələlər biznes dairələri üçün gərək aydın olsun. Belə olan halda əminəm ki, ticarət dövriyyəsi təkcə neft amilindən asılı olmayacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Perspektivli əməkdaşlıq istiqamətlərindən biri bərpaolunan enerji sahəsidir. Həmçinin müdafiə sənayesi sahəsində çox böyük potensial var. Prezident İlham Əliyevin bildirdiyi kimi, hər iki ölkədə sənayenin bu istiqaməti kifayət qədər inkişaf edib. Burada da səylərin birləşdirilməsi, birgə müəssisələrin yaradılması və qarşılıqlı əməkdaşlıq fayda gətirə bilər. Eyni zamanda, hər iki ölkə həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdırmaq imkanlarına malikdir.

**Beş mühüm təklif...**

Öz növbəsində Vyetnam lideri Birgə Bəyanatda əks olunan müddəaların səmərəli icrası məqsədilə beş təklif irəli sürüb. Bunlar aşağıdakılardır:

-Birinci məsələ partiya, dövlət, parlament və rayonlar kimi bütün səviyyələrdə əlaqələri və təmasları fəallaşdırmaqdır.

-İkincisi, hökumətlərarası komissiya vasitəsilə ticari-iqtisadi əməkdaşlığı fəallaşdırmaq.

-Üçüncüsü, müdafiə və təhlükəsizlik sahələrində əlaqələri fəallaşdırmalıyıq, informasiya təhlükəsizliyi, transmilli cinayətkarlıq və kibercinayətkarlıqla mübarizə sahələrində münasibətlərimizi inkişaf etdirməliyik.

-Dördüncüsü, mədəniyyət, idman və turizm, təhsil, xalqlararası təmaslar və regionlar sahələrində əməkdaşlığı genişləndirməliyik.

-Beşincisi, qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparmalıyıq və BMT, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Toplantısı kimi təşkilatlarda bir-birimizi dəstəkləməliyik.

Bəli bu təkliflər, əldə olunan razılaşmalar, perspektiv planlar yeni dövrdə ən mühüm siyasi-iqtisadi aktorlardan birinə çevrilən Azərbaycanın Vyetnam ilə əlaqələrində yeni səhifələr açır...

*Mübariz ABDULLAYEV*

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər






Mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib





Mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyası və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib.

Aksiya çərçivəsində Qaradağ rayonu, Müşfiqabad qəsəbəsi ərazisində 2000 ədəd Eldar şamı və zeytun ağacı əkilib. Eyni zamanda, ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.



# Daha əlçatan və əhatəli xidmətlər üçün

## “Sosial xidmət haqqında” qanuna dəyişikliklər qəbul edilib

Prezident İlham Əliyev “Sosial xidmət haqqında” Qanunda dəyişiklikləri təsdiq edib. Dəyişikliklərə əsasən, sosial xidmətin göstərilməsi barədə müraciətə baxılması, qiymətləndirilməsi və qərar qəbul edilməsi ilə bağlı mövcud prosedurlar asanlaşdırılır və daha da konkretləşdirilir. Yeni dəyişikliklər ölkəmizin sosial inkişaf çağırışlarından irəli gələrək sosial xidmət institutunda islahatların mühüm tərkib hissəsi olmaqla, əhalinin bu istiqamətdə artan tələbatı nəzərə alınmaqla gerçəkləşib. Belə ki, “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı”nda beynəlxalq sosial xidmət standartlarının Azərbaycanda qurulması, sosial asılılığın qarşısının alınması, inklüzivliyin təşviqi, sosial xidmətlərin genişləndirilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı tələblər müəyyən edilib. Bu istiqamətdə müvafiq qiymətləndirmələr aparıldıqdan sonra “Sosial xidmət haqqında” Qanuna edilən dəyişikliklər əsasında həmin tələblərin icrası üçün praktiki imkanlar yaranmış olacaq.

**Dəyişikliklər nəyi nəzərdə tutur?**

Əvvəlki qanunvericiliyə əsasən, sosial xidmətlər müxtəlif yaşayış məntəqələrində yaşayan insanların ünvanına və yerinə görə göstərilirdi və digər ətraf ərazilərlə əlaqələndirmədə çətinliklər vardı. Bu, daha geniş və əhalinin sosial xidmətlər kateqoriyasının ünvanlılığına mane olur, səyyar sosial xidmətdən istifadə hüququnu məhdudlaşdırırdı. Dəyişikliklərdən sonra artıq belə bir məhdudiyyət qalmır və Bakı şəhəri və digər rayon və şəhərlər, inzibati ərazi vahidlərindən asılı olmayaraq bütün vətəndaşların sosial xidmətlərdən istifadəsi üçün bütün imkanlar təmin olunacaq. Nəticədə, bu, sosial xidmətlərdən istifadə edən vətəndaşların əhatə dairəsinin genişləndirilməsinə səbəb olacaq.

Qanuna edilən digər mühüm dəyişikliklərdən biri də çətin həyat şəraitində olan bütün şəxslər və eləcə də ailələrin yarımstasionar (günərzi) sosial xidmətlərlə əhatə olunması və bu xidmətdən daha geniş əhali kateqoriyasının istifadə etməsinə şərait yaradılmasıdır. Bu xidmətlərin də təkmilləşdirilməsi daha geniş kateqoriya üzrə vətəndaşların sosial xidmətlərlə əhatə olunmasına səbəb olacaq.

Yeni dəyişikliklərə əsasən, subyektlər arasında müqavilə bağlanılmaqla dövlət büdcəsinin vəsaiti hesabına ödənişsiz sosial xidmətlər göstəriləcək. Əvvəllər yalnız ödənişli sosial xidmət göstərilərkən subyektlər arasında müqavilə bağlanması nəzərdə tutulurdu. Həmçinin, qanunvericilikdə asudə vaxtının səmərəli təşkil olunması ilə bağlı məsələlərdə də imkanlar artırılıb. Əvəllər bu xidmətlər yalnız sosial-pedaqoji xidmətin tərkibində göstərilirdi və sosial-pedaqoji xidmətdə yalnız yetkinlik yaşına çatmayanların inkişafındakı geriliklərin və davranışındakı pozuntuların profilaktikası nəzərdə tutulur, digər kateqoriyadan olan çətin həyat şəraitində olan şəxslərin bu xidmətdən istifadəsi mümkün deyildi. Yeni dəyişikliklərdən sonra, bu məhdudiyyət də aradan qalxmış olacaq.

**Səmərəliliyin artırılması, keyfiyyətin yaxşılaşdırılması**

Diqqətçəkən məsələlərdən biri - sosial-mədəni xidmətin əlavə olunması isə şəxslərin sosial-mədəni həyata uyğunlaşmasına, asudə vaxtın səmərəli təşkil olunmasına, bilavasitə sosiallaşmaya, cəmiyyətdə gedən proseslərə inteqrasiyasıdır. Digər vacib məqamlardan biri xidmətin keyfiyyətinin artırılmasına nəzarətin həyata keçirilməsi qaydasının müəyyən edilməsidir ki, bu da vaxtaşırı monitorinqlərin aparılması, məsuliyyətin və cavabdehliyin daha da artırılmasına zəmin yaradacaq.

Ümumilikdə, qanunvericiliyə edilən dəyişikliklər sosial xidmətlərin sayını, əhatə dairəsini genişləndirməklə yanaşı, dövlət vəsaiti hesabına daha çox xidmətlərin göstərilməsinə imkan yaradacaq. Eyni zamanda, çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətlərin səmərəliliyinin artırılması və keyfiyyətin yaxşılaşmasına səbəb olacaq, bu sahədə ünvanlılığı, xidmətlərə əlçatanlığı təmin edəcək.

Beləliklə, “Sosial xidmət haqqında” Qanuna edilən dəyişikliklər ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsi olmaqla, vətəndaşların sosial mənafeyinə xidmət edir.

*ELBRUS*

# Azərbaycan və Çinin təşəbbüskarlığı ilə...

## “Bir kəmər, bir yol”un yeni körpüsü olan “Dəniz İpək Yolu” regional haba çevrilir

2015-ci ilin mayında Çinin İnkişaf və İslahatlar üzrə Dövlət Komitəsi Ticarət və Xarici İşlər nazirlikləri ilə birlikdə “Gələcəyə baxış: “İpək Yolu iqtisadi kəmər” və XXI əsr “Dəniz İpək Yolunun” yaradılması istiqamətləri” adlı hesabatı hökumətə təqdim edib. Sənəddə Çinin zəif inkişaf edən regionlarında ixracyönümlü istehsalın artırılması və nəqliyyat infrastrukturunun yenilənməsi nəzərdə tutulub. Hesabat Çinin “Bir kəmər, bir yol” təşəbbüsü üzrə perspektivləri əks etdirməklə, 40 illik uzunmüddətli inkişaf hədəflərini nəzərdə tutur. Həmin prioritetlərin sırasında Azərbaycanın da yer aldığı Orta Dəhliz quruculuğunun gələcək inkişafına dair nikbin  proqnozlar əks olunub.

**2015-ci ildə verilmiş qərar**

Qeyd edək ki, “Bir kəmər, bir yol” layihəsi Çin rəhbəri Si Cinpin tərəfindən 2013-cü ildə elan edilib və bu təşəbbüsə ilk qoşulan ölkələrdən biri Azərbaycan olub. Prezident İlham Əliyevin 2015-ci ildə Çinə səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”nun imzalanmasından sonra ölkəmiz bu marşrutda öz yerini müəyyənləşdirib. 2019-cu ilin aprelində Pekində keçirilən 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən Azərbaycanın dövlət başçısı Asiya ilə Avropa arasında körpülərin qurulmasına, gələcək rifaha xidmət edən nəqliyyat-logistika qovşaqlarına investisiya yatırdığımızı bəyan edib. Azərbaycan Şərq-Qərb dəhlizi olan “Bir kəmər, bir yol” layihəsinin ən strateji halqası olan Trans-Xəzər (Orta Dəhliz) nəqliyyat dəhlizi ailəsinin fəal üzvü kimi son illər ərzində adıçəkilən layihədə strateji rolunu və mövqeyini daha da möhkəmləndirib və bu dəhlizdə öz layiqli yerini alıb.




2017-ci ildə Pekində keçirilən “Kəmər və yol” mövzusunda növbəti beynəlxalq forumda BMT-nin Baş katibi Antoniu Quterreş, Beynəlxalq Valyuta Fondunun direktoru Kristin Laqard, Dünya Bankının əlaqələndirici prezidenti Jim Yong Kim, 25 dövlət başçısı, 130 dövlətin rəsmisi və 30 beynəlxalq təşkilatın təmsilçiləri iştirak edib. Bu tədbir “Bir kəmər, bir yol” konsepsiyasını qlobal hab kimi strateji dünya layihəsi olmasını tam təsdiqləyib.

**Azərbaycan və Çin tranzit daşınmalarını 2 dəfə artırıb**

Azərbaycan bu qlobal layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci səhmdar kimi öz təşəbbüskarlıq iradəsini nümayiş etdirib, digər coğrafiyaları da bu dəhlizə cəlb edib. Asiya və Xəzəryanı ölkələri vahid logistika habında - Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunda (Orta Dəhliz) birləşdirib. Həmin dəhlizin əsas şaxələri olan Bakı-Tbilisi-Qars dəmir yolu, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi, Orta Dəhliz, həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı “Kəmər və yol” təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması bu nəqliyyat arteriyasında daşınmaların həcminin sürətlə artmasına səbəb olmaqdadır. Təkcə Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb. Digər ölkələrin bu nəqliyyat ailəsinə qoşulması isə daşınmaların qat-qat böyüməsi üçün yeni perspektivlər açır.

Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazisindən keçən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.

Hazırda bu layihəyə 150 dövlət qoşulub ki, bu da Çindən başqa dünya əhalisinin 65 faizinin yaşadığı bir coğrafiyanı əhatə edir. Bu ölkələr dünya ümumi daxili məhsulunun (ÜDM) 30 faizini istehsal edirlər. Təşəbbüs çərçivəsində həyata keçirilən işlərin maliyyələşməsi üçün ilkin olaraq büdcəsi 40 milyard dollardan ibarət “İpək Yolu Fondu” yaradılıb.

**Orta Dəhliz Zəngəzurla birləşir**

Uzunmüddətli hədəf bütün tərəfdaşları  vahid logistika zəncirində birləşdirməkdir. Azərbaycanın Qlobal Cənubun fəal ölkəsi olması və Çinin bu coğrafiyada çox vacib və fəal rol oynaması əlaqələrin çoxşaxəliliyini daha da artırır. Perspektivdə bu dəhlizin Zəngəzurdan, Zəngilan istiqamətindən keçməsi mümkün hesab edilir.

Azərbaycan həm də Çinin Avropa ilə artan ticarətində mühüm ötürücü statusuna malikdir. Şərqdən gələn böyük iqtisadi resursların, mal və xidmətlərin Avropaya çıxarılmasında və əmtəə zəncirinin genişlənməsində Azərbaycan tranzit və əlaqələndirici ölkə kimi strateji ölkədir, qitələr arasında bağlantını təmin edən geoiqtisadi əhəmiyyətə malik təchizatçıdır.

Beləliklə, Çinin “Bir kəmər, bir yol” təşəbbüsü iştirakçı dövlətlərə, o cümlədən də Azərbaycana iqtisadi dividendlərlə yanaşı, həm də siyasi zəmanət də qazandıracaq. Azərbaycan Çin və digər Asiya dövlətlərinin qismində özünə siyasi tərəfdaşlar əldə edəcək. Həmçinin, bu layihənin ən geniş qovşağı olan Orta Dəhlizin coğrafi hüdudlarının genişlənməsi Azərbaycan və Çin arasında ikitərəfli münasibətlərin inkişafını daha da artırmaqla, regional və qlobal səviyyədə yeni imkanları səfərbər edəcək. Bir sözlə,  “Bir kəmər, bir yol” konsepti qlobal sinerji proqramı olmaqla, nəhəng bir coğrafiyada rifah və əməkdaşlığın möhkəmlənməsində əsaslı rol oynayacaq.

***ELBRUS CƏFƏRLİ***

# Təhlükəsizlik naminə...

## Azərbaycan və Türkiyənin birgə hərbi təlimləri

Milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatların və məqsədyönlü tədbirlərin  nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Yəni ölkəmiz güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin də rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir silahlı qüvvələri sayılır.

**Dost və tərəfdaş ölkələrlə birgə hərbi təlimlər keçirilir**

Məlum olduğu kimi, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. Buna nümunə olaraq, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının “Üç qardaş” hərbi təlimlərini göstərmək olar. Eləcə də, Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə “Eternity” kompüter dəstəkli komanda-qərargah təlimini də xatırlamaq olar. Beynəlxalq əməkdaşlıq çərçivəsində daha bir hərbi təlim isə Qazaxıstanda keçirilib. Ötən il iyulun 8-dən 17-dək Qazaxıstanın qərbində yerləşən Manqistau vilayətində Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın hərbi qüvvələrinin iştirakı ilə regional beynəlxalq təlimlər baş tutub. Təlimlərə təxminən 4 min hərbi qulluqçu və 700-dək hərbi texnika





cəlb olunub.

İki qardaş ölkə olan Azərbaycanla Türkiyənin keçirdiyi birgə təlimlər isə artıq ənənə halını alıb. Belə ki,  Azərbaycan və Türkiyənin “Mustafa Kamal Atatürk”, “Anadolu Qartalı”, “Sarsılmaz Qardaşlıq”, “Qış təlimi-2025” birgə təlimləri xüsusi vurğulanmalıdır. Mayın 11-də isə Türkiyə və Azərbaycan hərbçiləri Naxçıvanda birgə təlim keçib. Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb. Məlumata görə, Türkiyə Ordusunun 9-cu Komando Briqada komandanlığı və Naxçıvanın Əlahiddə Ümumqoşun Ordusunun bölmələri “Birgə komando təlimi” keçirib.

Bundan əlavə, Azərbaycan Ordusunun hərbi qulluqçuları və aviasiya vasitələri “Anadolu Ankası- 2025” (“Anatolian Phoenix - 2025”) beynəlxalq axtarış-xilasetmə təlimində iştirak etmək üçün mayın 8-dən Türkiyənin Konya şəhərində səfərdədir.

**Türkiyə ilə hərbi əməkdaşlıq güclənir**

Qeyd edək ki, dünyada artan münaqişələr, qlobal təhdidlər belə hərbi təlimlərin davamlı olaraq keçirilməsini zəruri edir. Məsələ ilə bağlı qəzetimizə açıqlamasında hərbi ekspert Emin Həsənli bildirib ki, hərbi təlimlərin keçirilməsi dövlətlərarası razılaşmalara əsasən reallaşdırılır. Azərbaycanın ən çox birgə hərbi təlim keçirdiyi ölkə isə dost və qardaş Türkiyədir. Onun sözlərinə görə,  Azərbaycan dövlətinin bu istiqamətdə sərgilədiyi mövqe beynəlxalq hüquqa və dövlətlərarası imzalanmış sənədlərə əsaslanır: “Azərbaycan ilə Türkiyə bu gün əsl müttəfiqlik nümunəsi ortaya qoyur. Müttəfiqliyin ən mühüm istiqamətlərindən biri olan hərbi əməkdaşlıq iki qardaş ölkənin Silahlı Qüvvələrinin yeni situasiyada birgə fəaliyyəti üçün də perspektivlər vəd edir. Nəzərə alaq ki, “Şuşa Bəyannaməsi”ndə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edilməsi xüsusi vurğulanır. O cümlədən, sənəddə Azərbaycanla Türkiyənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi bildirilir. Bütün bunlar isə yeni dönəmdə Azərbaycan-Türkiyə müttəfiqliyinin əsas komponentləri sırasındadır”.

**“Komando”ların gücü...**

Hərbi ekspert deyib ki, Azərbaycanla Türkiyə arasında birgə hərbi təlimlərin keçirilməsi hərbi əməkdaşlığın mühüm elementlərindən biridir. Bütün sahələrdə olduğu kimi, hərbi sahədə də hər iki dövlətin əməkdaşlığı yüksələn xətlə davam edir. Yəni bu istiqamətdə siyasi iradə ortadadır. Bunun  nəticəsində Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə hərbi təlimləri ilbəil artırılır. Onun sözlərinə görə, Naxçıvanda keçirilən budəfəki  birgə təlim də bu baxımdan önəmlidir. Bu  hərbi təlim heç bir ölkəyə qarşı yönəlməyib, sadəcə iki qardaş ölkənin əməkdaşlığı çərçivəsində həyata keçirilir. “Əslində, düşünürəm ki, bu hərbi təlimlər sülh və təhlükəsizlik naminədir, onun bütün region üçün faydası var. Çünki Azərbaycanla Türkiyə hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Məşhur bir deyim var ki, “təlimdə nə qədər tər töksən, döyüşdə bir o qədər az qan axıdarsan”. Türkiyə ordusu NATO-nun ikinci güclü ordusudur. Komando hərbi birliklərinin yaradılmasında da Türkiyə ordusunun təcrübəsinə istinad edilib. Bu hərbi birliklərin gücünu və hazırlığını bilirik. Azərbaycan Ordusunun belə bir güclü, müasir tələblərə cavab verən ordu ilə əməkdaşlığı, birgə təlimlərin davam etməsi çox önəmlidir”,- deyə E.Həsənli vurğulayıb.

***Nardar BAYRAMLI***

# Azad edilmiş rayonlarımızda...

## İqtisadi potensial yüksəkdir!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti üzrə hazırlanmışdır**

İşğaldan azad edilmiş torpaqlarımızın iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. Qeyd etmək yerinə düşər ki, işğala qədər Qarabağ bölgəsində beynəlxalq ekspertlərin və tanınmış alimlərin iştirakı ilə çoxsaylı ekspedisiyalar keçirilmişdi. Alimlərin tədqiqatlarının nəticələrinə görə, bu torpaqlar biomüxtəlifliyin genetik ehtiyatlarının zənginliyinə görə ümumən Qafqaz regionunda xüsusi seçilir.

İşğaldan azad edilmiş ərazilərimizdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcək. Bu ərazilərin bərpası ilə çoxlu sayda yeni iş yerləri açılacaq. Ona görə də bu gün digər regionlarımızla birgə, işğaldan azad edilmiş ərazilərimizin də sosial-iqtisadi inkişafı prioritetdir.

**Qarabağ regionunun sosial-iqtisadi inkişaf strategiyası**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan iqtisadçı Fuad İbrahimovun sözlərinə görə, bərpa proseslərindən sonra işğaldan azad olunmuş rayonlarımızın, xüsusilə Laçın və Kəlbəcərin iqtisadi potensialı, o cümlədən, ölkə üzrə ümumi daxili məhsuldakı payının qiymətləndirilməsi göstərir ki, həmin ərazilərdə iqtisadiyyatın dəfələrlə artması mümkündür: “2030-cu ilə qədər olan dövr ölkəmiz üçün strateji zaman kimi xarakterizə olunur. İşğaldan azad edilmiş ərazilərin inkişaf strategiyasının əsas istiqamətləri Qarabağ regionunun sosial-iqtisadi inkişaf strategiyası, vətəndaş cəmiyyəti qurumlarının inkişafı, yeni sənaye siyasətinin, milli sahibkarlıq və texnoloji təşəbbüslərin həyata keçirilməsi vasitəsilə region qarşısında duran problemlərin həllini özündə əks etdirir. Müasir reallıqlar hədəflərə çatma dinamikasını artıra biləcək yeni mexanizmlərin tətbiqinə yönəlmiş prinsipial qərarların zəruriliyini ön plana çıxarır. Bu, geniş miqyaslı təsərrüfat fəaliyyəti yerlərində təbii mühitə diqqətli münasibətdir. İndiki Qarabağ nəsli ölkənin iqtisadi inkişafında avanqard rolunu qorumaq potensialına malikdir ki, gələcək nəsillər onların qazandıqları uğurlarla fəxr etsinlər və yenilikçilik estafetini qəbul etsinlər”.

**Faydalı əməkdaşlıq üçün imkanlar**

İqtisadçının sözlərinə görə, 2025-ci ilin metodoloji xüsusiyyəti iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsinin mexanizmlərini



müəyyənləşdirməyə imkan yaradan marketinq təfəkkürü prinsipi və bununla əlaqəli inkişafı paradiqmasıdır: “Marketinq təfəkkürü sistemin yenidən qurulmasını tələb edir. İqtisadi inkişafın paradiqması nöqteyinəzərindən innovasiyaların yaradılması üçün ən effektiv sayılan sektorlararası inkişaf variantları təklif olunur. 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına imkan yaratdı”.

**Effektiv makroiqtisadi siyasət**

F.İbrahimov bildirib ki, iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək: “Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, dövlətin biznesə dost münasibəti və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcək. Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli hərəkətverici qüvvələrinin möhkəmləndirilməsinə yol açır. Eyni zamanda insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir”.

***Sahib***

# “Terrorsuz Türkiyə” hədəfi...

## PKK-nın özünü buraxdığını elan etməsi bu hədəfin reallaşmasının göstəricisidir



PKK terror təşkilatı özünü buraxdığını açıqlayıb. Türkiyə mediasının yazdığına görə, Abdullah Öcalanın bu il fevralın 27-də etdiyi çağırışa cavab olaraq, PKK-nın “Konqres Şurası” mayın 5-7-də toplaşaraq PKK adlı “missiyaya” son qoymaq qərarına gəlib. Terror təşkilatının özünü buraxması barədə qərar isə mayın 12-də açıqlanıb.

**Fevralda başlanan proses...**

Xatırladaq ki, fevralın sonlarında Türkiyənin Ədliyyə Nazirliyi DEM Partiyasının deputatlarına PKK terror təşkilatının həbsdə olan lideri Abdullah Öcalanla görüşməsinə icazə vermişdi. Bu icazə əsasında DEM Partiyasının rəhbər şəxsləri və iki millət vəkili, həmçinin Mardin Böyükşəhər Bələdiyyə başçısı Əhməd Türkün də daxil olduğu heyət terror təşkilatının lideri Abdullah Öcalanla görüşüb. İmralıdan qayıtdıqdan sonra mətbuat konfransı keçirən heyət, Öcalanın yazılı mesajını açıqlayıb. Mətndə bildirilirdi ki, PKK artıq silahı yerə qoymalıdır. PKK lideri Abdullah Öcalan 26 ildir İmralı həbsxanasında saxlanılır. O, 1999-cu il fevralında Milli Kəşfiyyat Təşkilatının əməliyyatı nəticəsində Keniyada saxlanılıb və Türkiyəyə gətirilib. O, ölüm cəzasına məhkum edilsə də, hökm sonradan ömürlük həbs cəzası ilə əvəzlənib.

Çağırışdan dərhal sonra YPG qruplaşması PKK lideri Abdullah Öcalanın tərəfdarlarını silahı yerə qoymağa çağırmasını müsbət qarşılayıb. Təşkilatın nümayəndəsi Siyamend Eli bu çağırışın bölgədə sülhün bərqərar olmasına töhfə verəcəyini bildirib. Onun sözlərinə görə, Öcalanın mesajı münaqişənin dayandırılmasına yönəlib və bu, xüsusilə Türkiyə və region xalqları üçün mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, PKK-nın Suriya qolu sayılan Suriya Demokratik Qüvvələrinin (SDQ) rəhbəri Ferhat Abdi Şahin də prosesə konstruktiv yanaşdıqlarını vurğulayıb.

**Türkiyə üçün yeni dövr başlayacaq**

Əslində, PKK-nın ləğvinin aprelin sonunda reallaşacağı gözlənilsə də, bu qərar mayın 12-də açıqlanıb. Mayın 8-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir qrup nazir və deputatla görüşündə demişdi ki, ölkəsi bütün maneələri dəf edib, bu gün-sabah PKK silahı yerə qoyub təşkilatı ləğv edəcək. Onun sözlərinə görə, bundan sonra bütün Türkiyə üçün yeni dövr başlayacaq: “Bu mənada, siyasətin üzərinə böyük iş düşəcək. Bu prosesdən siyasi olaraq faydalanmaq istəyənlər ola bilər, buna hazır olmalıyıq. Bizi asan proses gözləmir. Bu məsələdə sizə güvənirəm”. Prezident Ərdoğan əsas hədəfin “Terrorsuz Türkiyə” olduğunu dəfələrlə bəyan edib. Artıq bu hədəfə də nail olundu.

**PKK-nın terror aktları nəticəsində 40 min insan həyatını itirib**

Xatırladaq ki, PKK Abdullah Öcalan tərəfindən 27 noyabr 1978-ci ildə yaradılmışdı. Bu, Türkiyənin şərq və cənub-şərqini, İraqın şimalını, Suriyanın şimal-şərqini və İranın şimal-qərbini əhatə edən bölgədə özünüidarə qurmaq və bu məqsədlə sözügedən torpaqlara sahib çıxmaq məqsədi ilə hərbi hədəflərə və mülki şəxslərə qarşı hücumlar təşkil edən qanunsuz separatçı silahlı təşkilat idi. Təşkilat ilk terror aktını 1984-cü ildə törətmişdi. PKK Türkiyə, ABŞ, Aİ və digər ölkələr tərəfindən terror təşkilatı olaraq qəbul edilmişdi. Təşkilatın terror aktlarının törədilməsi nəticəsində 40 min insan həyatını itirib.



**Türkiyə ordusunun gücü öz sözünü dedi**

Ərdoğan hakimiyyəti dövründə PKK ilə mübarizə gücləndirilib, xüsusilə son illər türk ordusu tərəfindən terrorçulara ciddi zərbələr vurulub. Şübhəsiz ki, PKK-nın özünü buraxmasında Türkiyə ordusunun gücü əsas rol oynayıb. Yeri gəlmişkən, təkcə ötən il PKK-ya qarşı mübarizə tədbirlərinə nəzər yetirmək kifayət edər. Belə ki, aprel ayında açıqlanan məlumata görə, əməliyyatların 54 min 612-də Pilotsuz Uçuş Aparatlarının (PUA) dəstəyindən istifadə olunub. Keçirilən 49 min 902 əməliyyatda 842 terrorçu ələ keçirilib ki, onların 35-i öldürülüb, 672 nəfər isə sağ ələ keçirilib. 135 terrorçu isə təslim olub. Terrorla mübarizə çərçivəsində 91-i PKK, 13-ü isə İŞİD olmaqla, ümumilikdə, 104 aksiyanın qarşısı alınıb. Qarşısı alınan terror aktlarından 79-u bombalı hücumlar olub. FETÖ-yə qarşı 5059, İŞİD-ə qarşı isə 1509 əməliyyat keçirilib - 1170 nəfər FETÖ, 816 nəfər isə İŞİD üzvü olan və ya bağlılığı olan şəxs həbs edilib. Əməliyyatlar zamanı 7-si qırmızı, 4-ü narıncı, 2-si sarı, 28-i isə boz siyahıda olan 41 yüksək səviyyəli terrorçu zərərsizləşdirilib. Məlumata əsasən, terrorun maliyyələşdirilməsi ilə bağlı 296 əməliyyat keçirilib. 1684 nəfər saxlanılıb, 254 nəfər həbs edilib. 4,4 milyonu PKK/KCK təşkilatına aid olmaqla 85 milyon 741 min TL ələ keçirilib.

**Verilən qərar praktikada da həyata keçirilməlidir**

Qeyd edək ki, Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) sözçüsü Ömər Çelik PKK terror qruplaşmasının özünü ləğv etməsi və silahı buraxması qərarını şərh edib. O, bu hadisəni “terrorsuz Türkiyə” hədəfi baxımından əhəmiyyətli mərhələ adlandırıb: “Terrorizm tamamilə bitərsə, yeni dövrün qapısı açılacaq”. Ö.Çelik əlavə edib ki, verilən qərar praktikada da həyata keçirilməlidir: “Bu proses dövlət qurumlarımız tərəfindən ciddi şəkildə izləniləcək, nəticələr Prezident Rəcəb Tayyib Ərdoğana təqdim olunacaq”.

Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun da PKK terror qruplaşmasının özünü ləğv etməsi qərarı ilə bağlı özünün “X” hesabında paylaşım edib. F.Altun qeyd edib ki, separatçı terror təşkilatının silahı buraxmaq və özünü ləğv etmək qərarının açıqlanması Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə aparılan “terrorsuz Türkiyə” prosesinin mühüm bir mərhələni gücləndirərək qət etdiyinin aydın göstəricisi olub: “Türkiyə 40 ili aşan prosesin sonunda gəlinən bu mərhələyə qədər müxtəlif bədəllər ödəmiş, çətinliklər çəkmiş və ən əsası övladlarını vətən uğrunda şəhid vermişdir. Bu günə görə əməklərin müqayisə edilməyəcək dərəcədə ən böyüyünün sahibi olan əziz şəhidlərimizin hər birini rəhmət və minnətlə anırıq. Şübhəsiz, “terrorsuz Türkiyə” prosesi dünəndən bu günə inkişaf edən qısamüddətli və dayaz bir proses olmadığı kimi, bu gündən sabaha çox sürətli şəkildə sonlanacaq bir proses də deyildir. Türkiyənin və əziz millətimizin terrordan, zorakılıqdan, xaosdan uzaq olduğu - hüzurun, sülhün və sabitliyin hakim qılındığı bir mühitin təsisi üçün Türkiyə Cümhuriyyəti bütün biliyi, potensialı və təcrübəsi ilə çalışmağa davam edəcək”.

F.Altun deyib ki, prosesin sağlam və axıcı bir şəkildə irəliləməsi üçün lazımi tədbirlər alınacaq, bütün addımlar həssas və şəffaf bir şəkildə, qətiyyət və diqqətlə atılacaq.

Yeri gəlmişkən, ötən gün Türkiyə hökumətinin Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən iclasının gündəliyində duran əsas məsələlərdən biri də terror probleminin Türkiyənin gündəmindən çıxarılması olub. İclasda 1984-cü ildən bu yana qanlı əməlləri ilə on minlərlə Türkiyə vətəndaşının həyatına son qoyan PKK terror təşkilatının fəaliyyəti dayandırıldıqdan sonra atılacaq addımlar diqqət mərkəzində saxlanılıb.

***Nardar BAYRAMLI***

# Mayın 15-də...
# İstanbul tarixi görüşə ev sahibliyi edəcək

## Rusiya ilə Ukrayna masada “üz-üzə”dir

Rusiya-Ukrayna müharibəsinin bitirilməsi istiqamətində gedən 3 illik prosesdə ən mühüm mərhələ yaşana bilər. Ayrı-ayrı dövlətlərin və təşkilatların təşkil edə bilmədiyi “sülh masası” İstanbulda qurulacaq. Belə ki, rəsmi Ankara birbaşa sülh danışıqları prosesinə ev sahibliyi etməyə hazırlaşır. Xatırladaq ki, müharibə başlayandan indiyə qədər əsas danışıqlar məhz Türkiyənin vasitəçiliyi ilə reallaşmışdı. Antalya Forumu çərçivəsində XİN rəhbərlərinin ilk təması, taxıl sazişi kimi müharibənin gedişinə təsir edən danışıqlar məhz Türkiyənin vasitəçiliyi ilə baş tutmuşdu. Bu dəfə isə masa arxasında Vladimir Putin ilə Volodimir Zelenski otura bilər - Ankaranın “Roma statutu”na qoşulmaması üzərində sanksiya olan Putinin Türkiyə sərhədlərindən içəri daxil olmasına heç bir maneə yaratmır. Beləliklə, Türkiyə nəşrlərinin də təsdiqlədiyi kimi, son dövrlərin əsas Rusiya-Ukrayna “siyasi dueli” İstanbulda baş tuta bilər...

**“Onu gözləyəcəm”...**

Bir neçə gün öncə Rusiya prezidenti Ukrayna müharibəsində üçüncü dəfə atəşkəs elan olunduğunu açıqlamışdı və bildirmişdi ki, sülh təşəbbüsü Türkiyənin vasitəçiliyi ilə reallaşa bilər - bununla bağlı bəyanatında Putin demişdi ki, Rusiya artıq qələbəsini elan edir və üçüncü dəfə atəşkəs elan edir: “Ukrayna ilə birbaşa və ilkin şərtsiz danışıqların 15 mayda İstanbulda başlanmasını təklif edirik”.

Görüşlə bağlı siyasətçilərin düşüncələri, baxışları fərqlidir. İlk olaraq bu nüansa toxunaq ki, həm ABŞ, həm Rusiya, həm də Ukrayna cəmiyyəti problemin Türkiyədə həll ediləcəyinə inanır - ən azından buna inam digər ölkələrdən böyükdür. Səbəb isə, Ankaranın son illərdə regionda oynadığı mühüm strateji roldur. Zelenski ilə Putinin “üz-üzə” oturması isə məsələnin həllində ilk pillənin aşılması demək olacaq. Təsadüfi deyil ki, Ukrayna liderinin çağırışı siyasi dairələrdə Kiyevin sülh istəyi kimi dəyərləndirilir. Belə ki, Zelenski Vladimir Putinə birbaşa çağırış edərək onunla şəxsən Türkiyədə görüşməyə hazır olduğunu bildirib və “onu gözlədiyini” deyib. Eyni zamanda o, mayın 15-də Türkiyəyə gedəcəyini deyib. Bu barədə məlumatı “Axios” nəşri Ukrayna rəsmisinə istinadla yayıb. Bu qərar isə sülh prosesi baxımından kritik və simvolik məna daşıyır. Rusiya prezidenti Vladimir Putinin 15 mayda İstanbulda Ukrayna ilə birbaşa danışıqlara başlaması barədə irəli sürdüyü təklif fonunda, Zelenskinin bu jesti həm diplomatik, həm də informasiya müharibəsində əhəmiyyətli siqnaldır. Hətta Qərb nəşrləri Zelenskinin Putinə birbaşa görüş təklif etməklə siyasi təşəbbüsü öz əlinə aldığını düşünür. “The Guardian” qəzeti yazıb ki, nadir hallarda səfərlərə çıxan Putini danışıqlara razı salmaq və ya açıq şəkildə bundan imtina etməyə məcbur etməklə Zelenski təşəbbüsü Kreml sahibindən almağa nail olub.



**Rusiya “tam kapitulyasiya” deyir?**

Rusiyanın isə Türkiyə danışıqları ilə bağlı planları fərqlidir. Belə ki, Putin mayın 15-də Ukraynadan tam kapitulyasiya da tələb edə bilər. “The Times” yazır ki, Kremlin şərtləri arasında Ukraynada hakimiyyətin dəyişdirilməsi, NATO-ya üzvlükdən rəsmi imtina və ciddi ərazi güzəştləri yer ala bilər. Rusiya rəhbərliyi bu tələbləri Ukrayna ilə mümkün sülh razılaşmasının ilkin şərtləri kimi təqdim etməyə hazırlaşır. Danışıqların dəqiq vaxtı və formatı hələlik məlum olmasa da, Qərb mənbələri bu tələb və təzyiqlərin sülh prosesinə zərbə vura biləcəyini bildirirlər.



Siyasi texnoloqlar düşünürlər ki, Rusiyanın açıq kartla oynamasının səbəblərindən biri Trampın son açıqlamasıdır - belə ki, ABŞ prezidenti Ukraynanı Rusiya prezidentinin mayın 15-də İstanbulda birbaşa danışıqlar aparmaq təklifinə “dərhal” razılaşmağa çağırıb. Eyni zamanda, ABŞ prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq mayın 11-də bəyan edib ki, Ukraynada tam və qeyd-şərtsiz atəşkəs birbaşa sülh danışıqlarına başlamazdan əvvəl olmalıdır. “Prezident Trampın dəfələrlə dediyi kimi, qətli dayandırın! Əvvəlcə qeyd-şərtsiz 30 günlük atəşkəs elan edin və sonra bu müddət ərzində hərtərəfli sülh danışıqlarına keçin”.

**Ankara iş başında...**

Tarixi görüşə vasitəçilik edəcək Türkiyə də “boş dayanmır”. Bütün tərəflərlə əlaqə saxlayan rəsmi Ankara prosesi maksimum müsbət nəticələrlə yekunlaşdırmağa qərarlı görünür. Məsələn, Prezident Ərdoğanın son günlərdəki telefon danışıqları bunu təsdiqləyir. Qeyd edək ki, mayın 11-də Fransa prezidenti Makron ilə danışan Ərdoğan danışıqlarda “tarixi dönüş nöqtəsi”nin əldə edildiyini bildirib. O, müharibəyə son qoymaq yolunda tarixi dönüş nöqtəsinin əldə edildiyini, bu fürsətdən istifadə edilməli olduğunu və Türkiyənin atəşkəs və davamlı sülhün təmin edilməsi üçün danışıqların təşkili də daxil olmaqla, hər cür töhfə verməyə hazır olduğunu bildirib.

Paralel olaraq Ərdoğanın Rusiya prezidenti ilə də telefon danışığı olub. Rusiya hakimiyyəti Putinin Ərdoğanla danışıqlarını təsdiqləyib. “Türkiyə tərəfi davamlı sülhün əldə edilməsinə yönəlmiş danışıqların təşkili və aparılmasında hər cür köməklik göstərəcək”, - Kremlin bəyanatında deyilir.

**Aİ-dən yeni sanksiya təhdidi...**

Qeyd edək ki, Avropa kontingenti də prosesi diqqətlə izləyir. Almaniya kansleri Fridrix Mertz bildirib ki, Moskvanın atəşkəslə razılaşması real danışıqları mümkün etmək üçün yeganə yoldur. “Əvvəlcə silahlar susmalıdır, sonra danışıqlar başlaya bilər”, - Mertz deyib. Fransa prezidenti Emmanuel Makron da oxşar bəyanatla çıxış edib. O, ukraynalıların bombalanmaya davam edərkən danışıqlara getməsini qəbuledilməz adlandırıb.

Paralel olaraq Aİ Rusiyaya qarşı maraqlı bir taktikaya əl ata bilər. Belə ki, İttifaq Rusiyaya qarşı yeni - 17-ci sanksiyalar paketini müzakirə edir. Bu barədə xarici mətbuat yazıb. Bildirilib ki, bu paket Aİ dövlətlərinin nümayəndə heyətləri arasında xüsusi fikir ayrılığına səbəb olmayıb və səfirlər səviyyəsində müzakirələr sürətlə aparılıb. Eyni zamanda, bir neçə nümayəndə heyəti Avropa Komissiyasının təqdim etdiyi yeni düzəlişləri öyrənmək üçün əlavə vaxt tələb edib. Sanksiyalar ilkin mərhələdə təsdiq edilərsə, onun tətbiq olunması üçün Aİ Xarici Əlaqələr Şurasında rəsmi təsdiq olunmalıdır. Bu iclas isə mayın 20-nə planlaşdırılır. Yəni İstanbuldan gələcək hər hansı neqativ bir nəticə 17-ci sanksiyalar paketini aktivləşdirə bilər. Bunu Aİ-nin Xarici Əlaqələr üzrə Ali Nümayəndəsi Kaya Kallas da dolayısı ilə təsdiqləyib. O bildirib ki, paket hələ tam razılaşdırılmayıb - “Rusiyanın sülh istəməsi üçün biz daha çox təzyiq göstərməliyik və sanksiyalar vasitələrdən biridir”,- deyə Kallas əlavə edib. Yeni sanksiyalar paketinin mühüm elementlərindən biri Rusiya “kölgə donanması”nın əlavə gəmilərinin qara siyahıya salınması olacaq. Bəzi məlumatlara görə, onların sayı 200-ə çata bilər. Fiziki və hüquqi şəxslərin də sanksiya siyahısı genişləndiriləcək.

***S.İSMAYILZADƏ***

# Trampın ilk rəsmi səfəri...

## Yenə də Körfəz ölkələri: ünvan dəyişməsə də, prioritetlər yenidir

ABŞ prezidenti Donald Trampın mayın 13-dən 16-dək davam edəcək Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə səfəri qlobal diqqət mərkəzindədir. Bu gündən başlanan tur prezidentin yanvarın 20-də vəzifəyə başladıqdan sonra ilk tamhüquqlu xarici səfəri sayılır. Xatırladaq ki, Tramp ilk prezidentliyi dövründə də ilk rəsmi səfərini məhz Səudiyyə Ərəbistanına etmişdi.

**Qəzza diqqət mərkəzində olacaq...**

Trampın Ər-Riyadda ABŞ və Körfəz Əməkdaşlıq Şurasının sammitində iştirak edəcəyi gözlənilir. Amerika mətbuatının yazdığına görə, prezidentin ABŞ-ın Yaxın Şərqdəki rolu və məqsədləri ilə bağlı fikirlər səsləndirəcəyi gözlənilir. AXİOS-dakı mənbələrin məlumatına görə, sammit mayın 14-nə planlaşdırılıb. Turun əsas məqsədlərindən biri iqtisadi sövdələşmələrin bağlanması və Amerika iqtisadiyyatına investisiyaların cəlb edilməsidir. Bundan başqa, səfər çərçivəsində HƏMAS - İsrail münaqişəsinin həlli yolları da müzakirə predmeti ola bilər. Qeyd edək ki, Trampın səfər edəcəyi ölkələrdən biri olan Qətər İsrail və HƏMAS arasında aparılan danışıqlarda əsas vasitəçidir.

Paralel olaraq Trampın qlobal neft qiymətlərini də müzakirə etməyi planlaşdırdığı bildirilir. ABŞ mətbuatının yazdığına görə, Vaşinqton ölkənin iqtisadi artımını sürətləndirmək üçün neft qiymətlərinə yenidən baxmağı əsas məqsədlərindən biri sayır.

**“İbrahim sazişləri” yenidən gündəmə gəlir...**

Trampın Körfəz ölkələrinə səfəri bir sıra məqamları ilə yadda qala bilər - belə ki, ABŞ mətbuatı səfər zamanı Donald Trampın Fələstin dövlətini tanıdığını elan edə biləcəyi ehtimalını irəli sürür. Siyasi mütəxəssislər bu fikri Trampın İsrail baş naziri ilə son dövrlərdəki soyuq münasibəti ilə əlaqələndirirlər. Bir müddət öncə NBC telekanalı mənbələrə istinadən Trampın son aylarda Netanyahu ilə gərgin münasibətdə olduğunu yazmışdı. Siyasətçilər arasında münasibətlər Qəzza zolağında hərbi əməliyyatların bərpası və İranla qarşıdurma ilə bağlı fikir ayrılıqlarına görə pisləşib.

Qeyd edək ki, belə bir addım ABŞ-ın mövqeyində dramatik dəyişiklik sayıla bilər - “The Media Line” mənbəsinə görə, İsrail və ərəb ölkələri arasında diplomatik münasibətləri normallaşdırmaq üçün “İbrahim Sazişləri”nin cəlbediciliyi artacaq. Donald Tramp prezident kimi ilk dönəmində belə sazişlərin təşəbbüskarı olsa da, Qəzzada davam edən müharibə kontekstində İsrailin Fələstin anklavını heç bir fərq qoymadan bombalamasına qarşı çıxan ərəb dünyası ölkələri üçün “İbrahim razılaşmaları” öz cəlbediciliyini itirmişdi.

Tramp administrasiyasının digər kompromis qərarı isə ABŞ-ın martın 15-dən bəri fəal şəkildə mübarizə apardığı Yəmən husilərinə qarşı zərbələrin dayandırıldığını elan etməsidir. MEE-nin məlumatına görə, Tramp administrasiyasının husilərlə atəşkəsə razılaşması ABŞ-Ərəb sammitinin təşkilatçısı olan Ər-Riyadın təşəbbüsüdür.



**Kompromis axtarışında...**

Trampın səfəri ilə bağlı fikirlərə diqqət çəkərkən, bir amili gözdən qaçırmaq olmaz - ABŞ prezidentinin son dövrlərdəki addımları göstərir ki, Vaşinqton artıq birtərəfli mövqedən əl çəkir və kompromis tapmağa çalışır. Hətta Qərb politoloqları da bildirirlər ki, Trampın hərəkətləri böyük ambisiyalardan xəbər verir - o, təkcə Rusiya ilə Ukraynanı, Hindistan və Pakistanı barışdırmaq niyyətində deyil, həm də ərəb-İsrail istiqamətində eskalasiyanı azaltmaq istəyir. Bəzi siyasətçilər Ağ Ev rəhbərinin vəziyyətə “effektiv menecer” nöqteyi-nəzərindən baxdığını bildirirlər - bu yolla da bütün dünyanı: Moskva ilə Kiyevi, Dehli və İslamabadı, İsraillə Fələstini barışdırmağı bacaracaq deyə iddialar irəli sürülür.

**Əsas prioritetlər...**

Səfər ediləcək dövlətlərin də Trampla bağlı prioritetləri mövcuddur. Enerji ilə zəngin üç Körfəz dövləti Trampın Yaxın Şərq səfərini münasibətlər baxımından nəzərəçarpacaq faydaya çevirməyə çalışacaq. Prosesin əvvəlinə diqqət yetirək:

- ABŞ prezidenti ilə əlaqələr qurulur;
- ABŞ iqtisadiyyatına trilyonlarla dollar investisiya vəd edilir;
- Trampın Qəzza, Ukrayna kimi həll etmək istədiyi münaqişələrdə əsas vasitəçi rolu üzərinə götürməyə çalışılır (Ərəbistanda keçirilən görüşlər də bunun sübutudur).

Başqa sözlə, burada hər bir tərəfin öz gözləntisi var - Tramp investisiya və maddi inkişaf üçün parametr, körfəz ölkələri isə ABŞ ilə daha yaxın münasibət axtarışındadır. Və bu qarşılıqlı istəklər də müəyyən mənada reallaşır. Tramp “Oval kabinetə” qayıtdıqdan sonra ABŞ ilə Körfəz ölkələri arasında münasibətlər xeyli yaxşılaşıb. Bayden administrasiyası dövründə bu münasibətlər donmuş vəziyyətdə idi. Qərbi politoloqlar iddia edirlər ki, körfəz ölkələri Vaşinqtonla əlaqələri gücləndirmək və dünyanın ən güclü ölkəsi ilə münasibətlərdə daha böyük imtiyazlar əldə etmək şansını qaçırmayacaqlar.

**Körfəz ölkələrinin gözləntiləri...**

Məsələn, ötən il Vaşinqton ilə Ər-Riyad arasında müdafiə sahəsi üzrə çoxmilyardlı bir müqavilənin imzalanacağı gözlənilirdi. Bu, sonradan dayandırıldı. Tramp isə İsrail-Fələstin münasibətlərindən kənarda böyük razılaşmaların axtarışındadır. Ər-Riyad həmçinin mülki nüvə proqramının hazırlanmasında ABŞ-la əməkdaşlığa can atır. CNN yazır ki, Səudiyyə Ərəbistanının nüvə proqramı Amerika şirkətlərinə gəlirli müqavilələr üçün “yaşıl işıq” ola bilər.

Tramp üçün ən vacib səfərlərdən biri isə BƏƏ-yə səfər sayılır. Çünki ABŞ-ın yeni münasibətlər strategiyasının mərkəzində daha çox BƏƏ investisiyaları diqqəti cəlb edir: Əbu-Dabi Amerika iqtisadiyyatına trilyonlarla investisiya yatıracağını vəd edib.

Qətərə gəldikdə isə, Doha ABŞ-la rəsmi təhlükəsizlik əlaqələri olan bir dövlət sayılır. Burada ABŞ-ın Yaxın Şərqdəki ən böyük hərbi bazası yerləşir. Xatırladaq ki, ötən il ABŞ Qətərdəki hərbi mövcudluğunu daha 10 il müddətinə uzadıb. CNN xəbər verir ki, Doha səfəri zamanı Trampla müzakirə ediləcək əsas məsələnin Suriya olacağı düşünülür. Qətər Tramp administrasiyasını Suriyaya qarşı sanksiyaları ləğv etməyə çağırır - bildirilir ki, Doha Suriyaya maddi yardım etmək üçün Vaşinqtonun da müsbət yanaşmasını gözləyir.

***P.SADAYOĞLU***

# Makronu kim əvəz edəcək?

Fransada ultra-sağçı qüvvələr hakimiyyəti ələ ala bilərlər - belə ki, bu yaxınlarda Fransanın İctimai Rəy Sorğu İnstitutu növbəti prezident seçkilərində iştirak edəcək namizədlərlə bağlı vətəndaşlar arasında sorğu aparıb. Sorğunun nəticələrinə görə, ifrat sağçı Milli Birlik (RN) partiyası ölkədə 2027-ci ildə keçiriləcək prezident seçkilərinin birinci turunda 32-35 faiz ilə qalib gələ bilər. Seçkilərin ikinci turuna gəlincə, Sorğu İnstitutu respondentlər arasında bu turda mübarizənin imkanlarını araşdırıb. Nəticə etibarı ilə respondentlər Jordan Bardellanın Marin Le Pendən daha yaxşı namizəd olacağı qənaətinə gəliblər. Seçkilərin ikinci turunda J.Bardellanın Makronçu Qabriyel Attalı 52 faiz və Brüno Rötayoyanı 53 faiz, solçuların namizədi Jan-Lük Melenşonu 67 faiz səslə məğlub etməsi proqnozlaşdırılır.

**İfrat millətçilər hakimiyyətdə**

Qeyd edək ki, son iki-üç ildə Avropa İttifaqının bəzi üzv ölkələrində keçirilən seçkilərdə ifrat millətçi və radikal sağçı partiyalar çox yüksək nəticə əldə ediblər. Məsələn, 2022-2024-cü illərdə keçirilən son seçkilərdə Niderland və Avstriyada Azadlıq Partiyası, İtaliyada “İtaliyanın Qardaşları” (FdI) partiyası birinci olmuşdular, Finlandiyada Finlər Partiyası və Belçikada “Vlaams Belang” partiyası isə yüksək nəticə əldə edərək sağ mərkəzçi partiyalar ilə koalisiya hökuməti qurublar. 2025-ci il fevralın 23-də Almaniyada keçirilən son parlament seçkilərinin nəticələri beynəlxalq ictimaiyyətin daha çox diqqətini cəlb etdi - ultra-sağçı Almaniya üçün Alternativ (AfD) partiyası Bundestaqda ikinci böyük partiya olub. Mayın 4-də Rumıniyada keçirilən təkrar prezident seçkilərinin birinci turunda ölkədə qatı sağçı kimi tanınan “Rumınların Birləşməsi Alyansı”nın (AOR) lideri George Simion 40,96 faiz səslə qalib gəlib.



**Ultra-sağçılara niyə bu qədər rəğbət bəslənir?**

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Aİ-də hazırkı siyasi vəziyyətə sosial-iqtisadi problemlər və miqrasiya siyasəti səbəb olub. “Avropada ifrat millətçilərin və ultra-sağçıların yüksəlişini bir neçə faktorla izah etmək olar. Bunların başında əsasən iqtisadi faktor dayanır. Son illər Aİ-nin üzv ölkələrinin iqtisadiyyatında çöküş, eləcə də bu ölkələrdə sosial-iqtisadi problemlər və texnoloji geriləmə müşahidə olunur. Aİ-nin bəzi üzv ölkələrində, xüsusilə də Almaniya və Fransada hökumət büdcədə olan kəsirləri aradan qaldırmaq üçün sərt iqtisadi siyasət yürüdür və sosial sahəyə ayrılan xərcləri azaldırlar. Bununla yanaşı, Avropa ölkələrində yüksək və orta təbəqə arasında uçurum daha da dərinləşib. Təbii ki, bu da sadə vətəndaşların narazılığını artırıb. Ultra-sağçı qüvvələr də bundan özlərinin lehinə istifadə edirlər. İstər Almaniyada, istər Fransada, istərsə də Aİ-nin hər hansı üzv ölkəsində hakimiyyətdə oturan sağ mərkəzçi, solçu və liberal partiyalardan narazı olan sadə vətəndaşlar ifrat sağçı partiyalara üz tuturlar,” - deyə S.Zahidov əlavə edib ki, Avropaya kütləvi miqrant axını avropalılar tərəfindən birmənalı qarşılanmır: “Bu da yerli xalq arasında narazılığı artıran əsas faktorlardan biridir. Hökumətin miqrantlara sosial yardım ayırmasına etiraz edənlər çoxalıb. Bu faktor sadə avropalıların ultra-sağçı partiyalara üz tutmasında mühüm rol oynayır. Bu gün Almaniyada hakimiyyətə gələn sağ-mərkəzçi Xristian Demokratların miqrasiya ilə bağlı sərt müddəalardan ibarət proqram qəbul etməsi məhz bundan irəli gəlir”. Ekspert, həmçinin vurğulayıb ki, avropalıların Aİ-yə münasibəti dəyişir: “Avropa İttifaqı həm milli, həm də fövqəl bir təşkilatdır. Aİ-nin üzv dövlətlərin sosial-iqtisadi siyasətinə təsir edən mexanizmləri çoxdur. Üzv ölkələrdə sadə vətəndaşların əksəriyyətinin Aİ-yə olan inamı sarsılıb”.

**Bardella prezident seçilə bilər?**

“Hazırkı vəziyyət onu göstərir ki, Fransada ifrat sağçı “Milli Birlik” partiyasının namizədi Jordan Bardellanın, hətta sağ-mərkəzçi namizəd Eduard Filippin qalib gəlmək ehtimal böyükdür. Əgər “Milli Birlik”partiyasının etibarını sarsıdacaq hər hansı fundamental hadisə baş verməsə, J.Bardellanın Fransanın növbəti prezidenti olmaq şansı böyükdür,”-deyə S.Zahidov vurğulayıb.

**Bardella - Qərbin qorxulu yuxusu**

Politoloq Tural İsmayılov qəzetimizə şərhində bildirib ki, sağ-mərkəzçi və sol-mərkəzçi partiyalar artıq Fransanın real sosial tələbatına cavab verə bilmir. Onun sözlərinə görə, ultra-sağçı qüvvələr bu boşluğu “millət” və “suverenlik” şüarları ilə doldururlar. “Onlar sadə fransız vətəndaşına deyir: “Səni unudanları biz unutmadıq.” Bu, emosional, eyni zamanda, dərin siyasi psixologiyaya toxunan mesajdır. Fransa Avropa İttifaqının ən güclü dövlətlərindən biri olmaqla yanaşı, ideoloji baxımdan da liberal-demokratik dəyərlərin aparıcı qarantı kimi çıxış edir. Ultra-sağçılar isə bu dəyərləri yenidən formatlamaq niyyəti güdür. Onların “Fransa üçün Fransa” doktrinası Aİ-nin kollektiv qərar mexanizmlərinə açıq zərbədir”. T.İsmayılov hesab edir ki, əgər Fransada ultra-sağçı qüvvələr hakimiyyətə gəlsələr, Fransa NATO-nun, xüsusilə də ABŞ-ın liderliyinə qarşı skeptik yanaşmaları gücləndirəcək və daha müstəqil xarici siyasət yürüdəcək. “Onlar üçün Fransanın suverenliyini qorumaq, Aİ-dən və digər beynəlxalq təşkilatlardan mümkün qədər asılılığı azaltmaq əsas prioritet olacaq. Bunun nəticəsi olaraq, Fransa NATO içində daha az aktiv və bəlkə də daha çox tənqidçi rol oynayacaq. Ultra-sağçılar ABŞ və Britaniya ilə birlikdə fəaliyyət göstərməkdən daha çox öz maraqlarını ön planda tutmağa meylli olacaqlar. Bu da NATO-nun qərar qəbul etmə mexanizminə təsir edəcək. Ultra-sağçıların hakimiyyətə gəlməsi Fransanın Yaxın Şərq siyasətində də əsaslı dəyişikliklərə səbəb olacaq. Bu dəyişikliklər yalnız Fransanın daxili siyasətinə təsir etməyəcək, həm də regionlararası və beynəlxalq münasibətlərə mühüm təsir göstərəcəkdir”.

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Şərq ədəbiyyatının incisi...

## Məhsəti Gəncəvinin doğum günüdür

Zəngin ənənələrə malik çoxəsrlik Azərbaycan poeziyasının tanınmış nümayəndəsi Məhsəti Gəncəvinin ədəbiyyatımızın tarixində özünəməxsus yeri var. Onun yaratdığı söz sənəti nümunələri insanı ucaldan yüksək bəşəri duyğular, nikbin ruh və dərin lirizmlə səciyyələnir. Şairənin ədəbi şəxsiyyəti yaradıcı Şərq qadınının fikir və mənəvi azadlığının parlaq təcəssümü kimi Qərb şərqşünaslarının əsərlərində çox yüksək dəyərləndirilib.

Bu gün şairənin anadan olmasından 936 il ötür. Gəncə şəhərində dünyaya göz açmış Məhsəti Gəncəvi uzun və səmərəli ömür sürüb, müasiri dahi Nizami kimi mükəmməl təhsil alıb, poeziya, fəlsəfə, musiqi, şahmat və başqa sahələrdə dövrünün kişi sənətkarlarından heç də geri qalmayıb. Onun müxtəlif qaynaqlardan toplanmış 200-dən artıq rübaisi Orta əsrlər Azərbaycan renessansının klassik örnəkləri cərgəsində özünə əbədi yer tutub.

Məhsətinin ən böyük nailiyyəti, bir ömür bahasına qazandığı ən başlıca xoşbəxtliyi budur ki, o, şairə olaraq əbədi dirilik, ölməzlik qazandı. O, hüsnüylə, təravətli rübailəriylə, sətrəncdəki istedadıyla, musiqidəki səriştəsiylə, büründüyü şöhrət və diqqət haləsiylə ucaldı.

İlk dəfə olaraq Səhab Tahiri tərəfindən Məhsətinin müxtəlif mənbələrdən rübai, qitə və qəzəlləri toplanıb və 1957-ci ildə 200-ə yaxın şeir parçasından ibarət divanını tərtib edib.

Ədəbiyyatşünasların fikrincə şəhər həyatının, şəhər mədəniyyətinin əsasını təşkil edən əsnaf təbəqəsini - sənət və peşə sahiblərini klassik şeirimizdə Məhsəti səmimiyyəti və Məhsəti qüdrəti ilə öyən ikinci sənətkar yoxdur. O, yaradıcılığının böyük bir hissəsini məhz bu zümrəylə bağlayaraq sənətkarlardan ibarət zəngin obrazlar yaradıb. Məhsəti irsinə bu prizmadan baxarkən onun əsl sənətkar böyüklüyünü anlayırıq və ədəbi hünərinin mahiyyətini dərk edirik. Məhsəti o sənətkarlarımızdandır ki, poetik yadigarlarının bəxtinə sərhədlərdən çıxmaq, ölkələr aşmaq və hər yerdə də qonaq kimi deyil, doğma kimi qarşılanmaq düşür.

Şərq qadınları şahmat oynamaqda yüksək istedad sahibi olublar. Sevimli şairəmiz Məhsəti Gəncəvi də bu müdrik oyunla maraqlanıb. Əmir Əhmədlə şahmat taxtası arxasında oyun zamanı Məhsətinin əqil və fərasəti, istedad və bacarığı sayəsində bədahətən dediyi rübailər onun şahmat oyununun incəliklərinə vararaq, ondan zövq almaq bacarığını göstərir. Azərbaycan qızının yüksək şahmat istedadı alman alimi, şərqşünas F.Meyerin də diqqətini cəlb edir. 1963-cü ildə Visbadendə alman dilində nəşr etdirdiyi “Gözəl Məhsəti” kitabında o, şairənin həyat və yaradıcılığını öyrənmək, onun ədəbi irsini toplayıb nəşr etmək sahəsində faydalı addım ataraq, Məhsətinin Gəncədə doğulduğunu, onun şair, musiqişünas, xanəndə olduğunu, həm də çox gözəl arfa çaldığını göstərmişdi.

Şairə 1160-cı ildə 71 yaşında dünyasını dəyişib. Məhsəti Gəncəvi həqiqi bir şairə oldu, dünyanı daha dərindən duydu, hiss etdi, insan ağrılarına biganə qala bilmədi... Bu, böyük xoşbəxtlik idi ki, ona nəsib olmuşdu!

***Yeganə BAYRAMOVA***

Bizim müsahib

# “Dayanmadan çalışsam, uğurlarımın davamı gələcək”




## Bugünkü müsahibimiz rejissor, Prezident mükafatına layiq görülən Şövkət Məhərrəmovadır

**- Şövkət xanım, öncə oxucularımıza özünüzü təqdim edərdiniz...**

- Mən Şövkət Məhərrəmova 17 iyun 1997-ci ildə Bakıda anadan olmuşam. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin SABAH qruplarını fəxri məzun kimi bitirmişəm. Kino rejissoru ixtisası üzrə həm bakalavr, həm magistr təhsilim var. Müəllimim mərhum kinorejissor Eldar Quliyev olub. Hazırda Azərbaycan Televiziyası, Xüsusi Layihələr studiyasının direktor müavini, eyni zamanda rejissoruyam. Həmçinin Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində , SABAH qruplarında müəllimlik fəaliyyəti ilə məşğulam.

**- Kiçik yaşlardan jurnalist və ya hüquqşünas seçmək olub istəyiniz, necə oldu ki, rejissorluq sahəsinə yiyələndiniz?**

- Uşaqlıqdan bir çox sahələrə marağım olub, xüsusən incəsənət sahələrinə. Rejissorluq elə bir fəaliyyətdir ki, özündə bir çox sahəni birləşdirir: aktyorluğu, musiqini, rəssamlığı və s. Bir sözlə, rejissorluğu seçən adam daim axtarışda olmalıdır.

**- Bu sahədə qarşılaşdığınız çətinliklər olub?**

- Təbii ki, rejissorluq asan sahə deyil, bu işin gecə-gündüzü yoxdur, daim həll yolu axtarmağa nail olmalısan, çünki bütün komanda işçiləri səndən asılı olur.

**- Musiqi ifa etdiyiniz bir çox videolarınız maraqla qarşılanır, təhsiliniz var, yoxsa hobbi kimi yanaşırsınız?**

- Musiqi təhsilim yoxdur, lakin anam musiqi müəlliməsidir. Anam öyrətməyə cəhd eləyəndə elə də həvəsli olmurdum. O deyirdi, özün məşğul ol, bacaracaqsan, dediyi kimi də oldu. Boş vaxtlarda özümçün məşqlər edirdim, musiqi duyumum yaxşı olduğu üçün tez bir zamanda ifa etməyi öyrəndim. Onu da qeyd edim ki, uşaq yaşlarından musiqi, eyni zamanda şeir yazırdım. Lakin hər zaman hobbi olaraq məşğul oluram və bu məşğuliyyət ruhumu dincəldir.

**- Musiqi yazmağa hələ də davam edirsiz?**

- Musiqi yazmaq mənim üçün özümü ifadə metodu idi. Artıq rejissor olaraq özümü daha yaxşı ifadə edə bilirəm deyə musiqi yazmıram. Son dəfə musiqi bəstələməyim 3-4 il bundan öncəyə təsadüf edib. Hazırda işıq üzü görməyən 25-ə yaxın mahnım var.

**- Bəs yazdığınız musiqilərlə bağlı hansısa təklifləriniz olub?**

- Xeyr, sadəcə, uşaq vaxtlarımdan özüm üçün yazırdım.

**- Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci il Gənclər üçün Prezident mükafatı ilə təltif edilənlər sırasında siz də varsınız. Gözləyirdinizmi belə bir xəbəri?**

- Cənab Prezident tərəfindən bu cür mükafata layiq görülmək çox qürurvericidir. Həm də böyük məsuliyyətdir. Belə bir mükafata layiq görülən gənc olaraq bu etimadı doğrultmalıyam.

**- Maraqlıdır, ilk dəfə xəbəri necə aldınız?**

- İş yoldaşımdan eşitdim ilk olaraq. Elə bu otaqda oturmuşduq. Həmin gün işimlə bağlı başqa bir uğurum da olmuşdu, həmin hadisəyə görə hər kəs məni təbrik edirdi. Bu zaman başqa bir iş yoldaşım da zəng edib xüsusi şəkildə təbrik etdi və mənə həmin sərəncamın şəklini yolladı, bu xəbər həmin gün mənə ikiqat sevinc yaşatdı.

**- Sizin filmləriniz bir çox ölkələrdə və festivallarda təqdim olunub, həmin filmlər ekranlarımızda yayımlanıb?**

- Xeyr, festivallarda təqdim olunan filmlər ekranlarda yayımlanmır. Müxtəlif filmlərin və verilişlərin quruluşçu rejissoru olmuşam. Filmlərim ölkə daxilində və xaricində festivallarda iştirak edib və müxtəlif mükafatlar qazanıb.

**- Sizcə, hazırda ölkəmizdə film sahəsi yetərincə inkişaf edibmi?**

- Film sahəsindəki inkişaf göz önündədir. Son dövrlərdə çəkdiyimiz serialları xüsusi vurğulamaq istədim. Misal olaraq “Vətəndaş A” serialının adını çəkə bilərəm. İstər görüntü, istər ssenari baxımından yaxın 4-5 ilə nisbətən xeyli fərq hiss olunur. Filmlər festival həyatı yaşayır deyə internetə çox gec yüklənir və az sayda insan baxır, yəni cəmiyyətimiz həmin filmlərin varlığından xəbərsiz olur. Lakin həmin filmlərə baxan tamaşaçılardan kifayət qədər müsbət rəylər alırıq. Bunlardan “Nar bağı”, “Üçüncü günün adamı”, “Qırmızı bağ” filmlərini misal göstərmək olar.

**- Yaxın gələcəkdə hansı layihələriniz gözlənilir?**

- Keçən il Xüsusi Layihələr studiyası tərəfindən 28 film təqdim etmişik. Hazırda bir ay ərzində əlliyə yaxın adda veriliş yayımlanır. Eyni zamanda müəllif işi olaraq da layihələr və qısametrajlı film üzərində işləyirik. İnanıram ki, uğurlu işlər ortaya qoyacağıq.

**- Qeyd etdiniz ki, həm də müəllim olaraq çalışırsınız. Eyni zamanda bir neçə işlə məşğul olmaq çətin gəlmir sizə?**

- Müəyyən informasiyaları tələbələrlə bölüşəndə həmin məlumatlar özüm üçün də yenilənmiş olur. Öyrətmək, həm də öyrənməkdir.

**- Mütaliə edirsinizmi, daha çox hansı janra üstünlük verirsiniz?**

- Məndən soruşanda ki hansı film və ya kitab çox sevirsiniz, heç vaxt dəqiq bir yazıçı və ya rejissor adını deyə bilmirəm. Mənə elə gəlir ki, insanın ruh halı ilə bağlı olan bir nüansdır. Ümumi götürsək, dram janrını çox oxuyuram.

**- Son olaraq bu yolda addımlayan gənclərə nə demək istəyərdiniz?**

- Əgər bir məqsəd qarşıya qoymusansa və o məqsəd üçün çapalayırsansa, gec-tez məqsədinə çatacaqsan. Nəzərdə tutduğum planlara doğru addımlar atdığım üçün uğurlu alınır. Əminəm ki, dayanmadan çalışsam, bu uğurların davamı gələcək. Bütün gənclərə məsləhət görərdim ki, heç vaxt həvəsdən düşməsinlər və daim öz üzərlərində işləsinlər.

***Havar Şəfiyeva***

# Azercell-in tərəfdaşlığı ilə keçirilən “Baku Flames” festivalı dünyanın aparıcı reklam və yaradıcılıq sahəsinin mütəxəssislərini bir araya gətirdi




Lider mobil operator “Baku Flames” Beynəlxalq Yaradıcılıq və Effektivlik Festivalının rəsmi tərəfdaşı qismində çıxış edib. Qlobal reklam və kreativ sənaye nümayəndələrinin qatıldığı bu tədbir çərçivəsində Azercell-in təşkil etdiyi “Tatamidən kənarda - Daha yaxşı gələcək naminə mübarizə” adlı panel sessiyası iştirakçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

Panel zamanı korporativ tərəfdaşlıqların sosial təsiri, gənclər arasında sağlam həyat tərzinin təşviqi və idman dəyərlərinin cəmiyyətə inteqrasiyası mövzularında müzakirələr aparılıb.

“Endorphin” kreativ agentliyinin direktoru Orxan Kərimin moderatorluğu ilə keçirilən paneldə Azercell-in Korporativ və Marketinq Ünsiyyət Vasitələri Departamentinin direktoru Sona Abbasova, Azərbaycan Cüdo Federasiyasının icraçı vitse-prezidenti Rəşad Rəsullu və tanınmış rep ifaçısı Orxan Zeynallı çıxış ediblər.

Sona Abbasova Azercell-in Azərbaycan Cüdo Federasiyası ilə tərəfdaşlığının dərin və mənalı bir missiyaya əsaslandığını bildirib. O, bu əməkdaşlığın dürüstlük, tərəfdaşlıq və insanlara xidmət kimi ortaq dəyərlər üzərində qurulduğunu və məhz bu dəyərlərin “Qızlara ağ yaraşır” kimi yüksək ictimai təsirə malik sosial təşəbbüslərin həyata keçirilməsinə zəmin yaratdığını qeyd edib. Sona Abbasova, həmçinin, Azercell-in dəyər əsaslı əməkdaşlıqlar vasitəsilə cəmiyyətə müsbət təsir göstərmək öhdəliyinin gələcəkdə də davam edəcəyini vurğulayıb.

Rəşad Rəsullu öz növbəsində Azercell-lə birgə reallaşdırılan daha bir sosial kampaniya olan “Söz verirəm” layihəsinin əhəmiyyətindən danışıb: “Bu təşəbbüs cüdoya olan marağı artırmaq və sağlam həyat tərzini təbliğ etməklə yanaşı, gənclər və yeniyetmələr arasında qlobal səviyyədə aktual olan qısnama mövzusuna toxunur. Layihə vasitəsilə bu problemə diqqət çəkmək istədik, çünki cüdonun təməlində dayanan hörmət, dürüstlük, əzm və dostluq kimi dəyərlər gənclərin formalaşmasında mühüm rol oynayır.”

Tanınmış rep ifaçısı Orxan Zeynallı isə çıxışında Azercell və Cüdo Federasiyanın əməkdaşlığı çərçivəsində ərsəyə gələn “Doğru yol budur” adlı daha bir kampaniya üçün bəstələyib ifa etdiyi əsərindən danışıb. İfaçı musiqinin gənclərə təsirini önə çəkərək, - “Bu layihədə ilk dəstəkçimiz musiqi oldu, çünki musiqi özünüifadə və sosial dəyişiklik üçün güclü vasitəsidir. Bu kampaniya vasitəsilə biz gəncləri zərərli vərdişlərdən uzaq durmağa və doğru seçimlər etməyə təşviq edirik”, - deyə bildirib.

“Azercell Telekom” MMC və şirkətin fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə daxil olun.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4952**
**Sifariş: 1000**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova